# 10 il öncə, bu gün...

## Azərbaycan mədəniyyəti inkişaf yollarında

*Yeganə BAYRAMOVA*

Azərbaycan xalqı tarixən qədim və zəngin mədəniyyətə malik olub. Bu fikri ölkəmizə gələn əcnəbilər də zaman-zaman etiraf ediblər. Hazırda bir çox mədəniyyət nümunələrimiz dünya ölkələrindəki mədəni mərkəzləri və muzeyləri bəzəməkdədir. Mədəniyyətimizə, tarixi-mədəni sərvətlərimizin qorunmasına Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı həmişə rəğbətlə qarşılanıb.

Mədəni həyatımızda mühüm rol oynayan tədbirlərdən biri də Avstriyanın paytaxtı Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması idi. Mədəniyyət Mərkəzi Prezidentin 2012-ci il 16 noyabr tarixli sərəncamı əsasında yaradılıb. 10 il öncə bu gün, yəni 2013-cü il 13 may tarixində ölkə başçısı və Birinci xanım sözügedən Mədəniyyət Mərkəzinin açılışında iştirak etmişdi. Mərasimdə çıxış edən Prezident Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışını iki ölkənin münasibətləri tarixində əlamətdar hadisə kimi qiymətləndirmişdi.





Sözügedən Mərkəzdə Avstriya ictimaiyyətinin Azərbaycanı yaxından tanıması üçün respublikamızın zəngin mədəniyyəti, incəsənəti və turizm imkanları barədə müxtəlif tədbirlərin təşkil olunması nəzərdə tutulub. Mərkəzin fəaliyyət istiqamətlərinə Azərbaycan dili kurslarının təşkili də daxildir. Bu mədəniyyət ocağının kitabxanasında qonaqlar Nizami Gəncəvinin, Nəsiminin, Məhəmməd Füzulinin və Azərbaycan ədəbiyyatının digər klassiklərinin, həmçinin müasir ədəbiyyatımızın görkəmli yazıçı və şairlərinin əsərləri ilə tanış olurlar. Mərkəzdə mütəmadi şəkildə təşkil olunan musiqi axşamlarının iştirakçıları Azərbaycan xalq musiqisi ilə yanaşı, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov və digər tanınmış bəstəkarların əsərlərinin səslənəcəyi konsert proqramlarını dinləmək imkanı əldə edirlər.

Qeyd edək ki, Mərkəzin yaradılmasında başlıca məqsədlərdən biri də Avstriyanın mədəniyyət və turizm qurumları, kütləvi informasiya vasitələri ilə əməkdaşlığı inkişaf etdirməkdir. Eləcə də bu ölkədə fəaliyyət göstərən digər dövlətlərin mədəniyyət mərkəzləri ilə sıx əlaqələr quraraq mədəniyyətlərarası dialoqa töhfə vermək əsas vəzifələrdən biridir.

Heydər Əliyev Fondu Azərbaycanı mədəniyyətlərarası dialoq-barış məkanına çevirib. Mədəniyyətin inkişafı, dünyaya inteqarsiya etməsi, mədəniyyətə qayğı Heydər Əliyev Fondunun milli-mənəvi irsə necə böyük həssaslıqla yanaşdığını göstərir. Xüsusi olaraq vurğulamalıyıq ki, Vyanada yaradılan Mədəniyyət Mərkəzi Fondun prezidenti Mehriban Əliyevanın ölkəmizin xaricdə tanıdılması istiqamətində həyata keçirdiyi mühüm tədbirlərdən biridir. Həmin mədəniyyət ocağı bu sahədə aparılan işlərin gücləndirilməsinə, vahid mərkəzdən idarə olunmasına və daha səmərəli fəaliyyətin qurulmasına geniş imkanlar açır.

Xatırladaq ki, xaricdə ilk Azərbaycan Mədəniyyət Mərkəzi 2012-ci ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə Parisdə açılmışdı.